


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

5 avqust 2023-cü il
şənbə

1933-cü ildən çıxır
№ 29 (3643)


# Qarabağ Azərbaycandır!

## Müzəffər Ali Baş Komandan: “Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi”

Prezident İlham Əliyev Şuşada “Euronews” televiziyasına müsahibə verib. Müsahibədə dövlət başçısı İkinci Qarabağ müharibəsindən sonrakı geosiyasi vəziyyət, Avropa İttifaqının, Birləşmiş Ştatların və Rusiyanın vasitəçiliyi ilə Ermənistanla aparılan sülh müzakirələri, eləcə də Laçın sərhəd-buraxılış məntəqəsində son günlər baş verən hadisələrə mövqeyini bildirib.



### İlin sonunadək sülh ola bilər

Brüsseldə sülh danışıqlarının növbəti raundu barədə sualı cavablandıran Prezident İlham Əliyev bildirib ki, əgər Ermənistan konstruktiv yanaşma sərgiləsə və ən vacibi ərazi bütövlüyümüzü mübahisələndirən bütün iddialarını kənara qoysa, onda tezliklə, bəlkə də ilin sonunadək sülh variantı tapıla bilər.

Danışıqların təşkil edilməsində hazırda Avropa İttifaqının təşəbbüsü ələ almasını çox fəal dialoq formatına çevrilmə kimi dəyərləndirən dövlətimizin başçısı sülh arayışında Rusiyanın da iştirakına toxunub. Qeyd edib ki, prosesin kimin tərəfindən aparılacağı və ya prosesi kimin müəyyən dərəcədə inhisara götürəcəyi bizim üçün böyük fərq etmir. Nəticəyə gəlmək vacibdir. Azərbaycan sülh sazişi ilə nəticələnəcək təşəbbüsü irəli sürən hər hansı tərəfi dəstəkləyəcək.

Laçın yolunda baş verənlərlə bağlı isə Prezident Qarabağda təbii sərvətlərin, dəmir və qızıl filizinin yük maşınlarında rus sülhməramlılarının müşayiəti ilə Ermənistana daşındığı, bundan sonra Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin yola nəzarət etməyə başladığını deyib. Ancaq o zaman da yol bağlı olmayıb. İyunun 15-də Ermənistan növbəti hərbi təxribata əl ataraq sərhədçilərimizdən birini yaralayıb. Daha sonra isə Qırmızı Xaç Komitəsinin yük maşınlarının yoxlanılması zamanı qaçaqmalçılıq faktları aşkar olunub.

Danışıqların vəziyyətinə, sülh prosesinə toxunan Prezident İlham Əliyev bildirib ki, müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatıb.

Hazırda Azərbaycanın gündəliyində sülh danışıqlarının olduğunu deyən dövlətimizin başçısı Qarabağın erməni sakinlərinin diqqətinə çatdırıb ki, onlar Azərbaycan cəmiyyətinin bir hissəsi olaraq normal həyat yaşayacaqlar: **“Onlar başa düşməlidirlər ki, bizi saymamağa davam etsələr, bizim mövcud olmadığımız kimi davranmağa davam etsələr və ya “prezidenti”, “nazirləri”, “parlamentariləri” olan qondarma ölkədə yaşayırlarmış kimi davransalar, bu gün olduqları vəziyyət onların xeyrinə dəyişməyəcək. Bütün bunlar yalandır. Biz onlara normal həyat təklif edirik. Düşünürəm ki, onlar mənə qulaq assalar başa düşəcəklər və bilirlər ki, mən sözümə əməl edirəm”.**

## Sülh müzakirə olunub

### Prezident İlham Əliyev mövqeyini bir daha bəyan edib

İyulun 29-da ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı Azərbaycanla Ermənistan arasında sülh prosesi üzrə danışıqlar və bölgədə son vəziyyət müzakirə olunub.

Ermənistan tərəfinin atdığı təxribatçı addımların sülh prosesinə maneçilik törətdiyini bildirən dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazisində qanunsuz olaraq qalmaqda davam etməsi bölgədə hərbi gərginlik mənbəyidir. Dövlətimizin başçısı Ermənistan tərəfinin Laçın dövlət sərhədindən keçid məntəqəsində hərbi təxribat törətməsini, sərhədçilərimizi atəşə tutmasını, qaçaqmalçılığa cəhd edilməsini, icazəsiz yük avtomobillərinin Azərbaycana göndərməsini qeyd edib, erməni tərəfinin Xankəndində “Humanitar vəziyyət” və “blokada” ilə bağlı iddialarını siyasi manipulyasiya adlandırıb.

Prezident İlham Əliyev erməni sakinlərin reinteqrasiyası məqsədlə Xocalıda birinci görüşün keçirildiyini, ikinci görüş üçün isə təklifin təqdim edildiyini xatırladıb.

## Şəhər günü təsis edilib

### İşğaldan azad edilmiş şəhərlərin günləri təntənəli qeyd olunacaqdır

İşğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri təsis edilib. Prezident İlham Əliyevin bununla bağlı imzaladığı Sərəncama əsasən, hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunacaq:

26 avqust – Laçın şəhəri günü
4 oktyabr – Cəbrayıl şəhəri günü
17 oktyabr – Füzuli şəhəri günü
20 oktyabr – Zəngilan şəhəri günü
25 oktyabr – Qubadlı şəhəri günü
8 noyabr – Şuşa şəhəri günü
20 noyabr – Ağdam şəhəri günü
25 noyabr – Kəlbəcər şəhəri günü.

## Daxili işlər naziri qəbul keçirib

### Qəbulda 115 vətəndaşın müraciətinə baxılıb, sıra baxışında 23 Vətən müharibəsi iştirakçısı xidmətə qəbul edilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov 3-4 avqust tarixlərində Qusar Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Qusar rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

(Ardı 2-ci səhifədə)

## Yeni Qarabağ, yeni Zəngəzur

### Geniş quruculuq-abadlıq işləri dövlət başçısının nəzarətindədir

***Vətən müharibəsi başa çatandan dərhal sonra işğaldan azad edilmiş 11 min kvadratkilometrdən çox ərazidə genişmiqyaslı quruculuq-abadlıq işlərinə başlanılıb. Ermənilərin daşı-daş üstündə qoymadıqları həmin ərazilər hazırda böyük tikinti meydanını xatırladır.***

### "Böyük Qayıdış" hədəfi

Azad edilmiş ərazilərdə müasir infrastruktur qurulur, yaşayış məntəqələri, şəhər və kəndlər bərpa olunur. Göz önündə yeni bir Qarabağ, yeni bir Zəngəzur formalaşır. Bu günlərdə Cəbrayıl şəhərinin Baş planının təsdiqlənməsi quruculuq-abadlıq işlərinin geniş vüsət alamasının xəbərçisi oldu.

Beynəlxalq vasitəçilərin iştirakı ilə aparılan sülh danışıqları fonunda Azərbaycan işğaldan azad edilən ərazilərə “Böyük Qayıdış”ı təmin etmək üçün əzm nümayiş etdirir. Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla Böyük Qayıdış üzrə strateji çərçivə müəyyənləşdirilib. Əhalinin dayanıqlı məskunlaşması, azad edilmiş ərazilərin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatəsi, yaşayış və qeyri-yaşayış komplekslərinin inşası, “ağıllı şəhər və ağıllı kənd” konsepsiyaları bu çərçivədə həyata keçirilir. Sosial xidmət infrastrukturu bərpa olunur. Bununla da əhalinin təhlükəsiz, ləyaqətli və dayanıqlı əsasda planlaşdırılan məskunlaşmasına çalışılır.

Artıq Böyük Qayıdışa start verilib. Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” konsepti ilə inşa olunan yaşayış məntəqəsinə ailələr köçürülüb. Tərtər rayonunun Talış kəndinə, Laçın şəhərinə ağır qaçqınlıq və məcburi köçkünlük taleyi yaşamış soydaşlarımızın qayıdışı davam edir. Cari ilin sonunadək Füzuliyə də ilk qayıdışın baş tutacağı gözlənilir. Perspektivdə isə bu prosesin əhatə dairəsi yeni ünvanlar hesabına daha da genişlənəcək.

Prezident İlham Əliyev postmüharibə mərhələsində işğaldan azad olunmuş ərazilərə səfərləri çərçivəsində keçirdiyi görüşlərdə bütün yaşayış məntəqələrinin planlı şəkildə bərpa edilməsinə dair tapşırıq və tövsiyələrini verib. Dövlət başçısının verdiyi tapşırıqlar həm layihələndirmə zamanı, həm də tikintinin gedişində nəzərə alınır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında Baş planlar hazırlanır, təsdiq edilir. Yeni layihələr hazırlanarkən tarixi ənənələr və müasirlik əsas götürülür.

İndiyədək Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ayrı-ayrı şəhərlərin, o cümlədən də mədəniyyət paytaxtımız Şuşanın Baş planının təqdimat mərasimləri keçirilib.

Laçın şəhərinin də Baş planı dövlətimizin başçısına təqdim olunub.


Hüquq məbədi, təhsil ocağı — səhifə 2

Asayiş bizə əmanətdir... — səhifə 3

Vətəndaş məmnunluğu əsas tələbdir — səhifə 3

Əfsanəvi polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları — səhifə 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

## Xarici işlər nazirləri görüşüb

İyulun 31-də xarici işlər naziri Ceyhun Bayramov Türkiyəyə rəsmi səfəri çərçivəsində xarici işlər naziri Hakan Fidanla görüşüb.Təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib. Azərbaycan və Türkiyə arasında ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən bölgədə mövcud vəziyyət müzakirə olunub. Daha sonra keçirilmiş mətbuat brifinqində nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış ediblər, jurnalistlərin suallarını cavablandırıblar.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovu Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul edib.

## Ekstremizmlə mübarizə müzakirə olunub

Avqustun 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Qubada "Heydər Əliyev İli" çərçivəsində "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda regional konfrans işinə davam edib. Konfransda din sahəsində mövcud olan problemlər, dini radikalizmə və ekstremizmə qarşı mübarizə sahəsində görülən işlər, həmçinin qarşıda duran vəzifələr müzakirə olunub. Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun əməkdaşları çıxışlarında dinin siyasiləşdirilməsi cəhdlərinə, dini radikalizm və ekstremizmə qarşı effektiv mübarizənin aparılması, dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi məqsədilə müxtəlif formatlarda birgə tədbirlərin keçirilməsinin olduqca əhəmiyyətli olduğunu vurğulayıblar.

## Gəlirlər sosialyönümlü tədbirlərə yönəldiləcək

Dövlətə məxsus parklanma yerlərindən yığılan ödənişlərin bir hissəsininin yığımını həyata keçirəcək qurumlar öz işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə xərcləyə biləcək.

Bu barədə Prezident İlham Əliyevin təsdiqlədiyi "Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə Qaydası"nda göstərilib. Yeni qaydaya görə, bu vəsaitin 50 faizini Daxili İşlər Nazirliyi, 30 faizini isə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qeyd edilən məqsəd üçün istifadə edə biləcək.

# Daxili işlər naziri qəbul keçirib

### Qəbulda 115 vətəndaşın müraciətinə baxılıb, sıra baxışında 23 Vətən müharibəsi iştirakçısı xidmətə qəbul edilib

(Əvvəli 1-ci səhifədə)

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Şabran, Siyəzən və Xaçmaz rayonlarından qəbula gələn 115 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 23-ü Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 91 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.







# İlk iclas, yeni vəzifələr

### Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın yeni tərkibdə iclası keçirilib

**Avqustun 2-də daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyevin iştirakı ilə İctimai Şuranın yeni tərkibdə iclası keçirilib. İclasda fəaliyyət istiqamətləri müzakirə edilib, qarşıda duran məsələlər və təkliflər dinlənilib.**

Şuranın keçmiş tərkibi ilə bağlı fikirlərini bildirən nazir müavini qeyd edib ki, Nazirliklə İctimai Şura arasında əməkdaşlıq yüksək səviyyədə olub, fəaliyyət müddətində İctimai Şura "İctimai iştirakçılıq haqqında" qanundan irəli gələn vəzifələrini layiqincə yerinə yetirib.

Şura adından çıxış edən Əliməmməd Nuriyev də Daxili İşlər Nazirliyinə İctimai Şura ilə əməkdaşlığına görə öz minnətdarlığını bildirib.

Daha sonra İctimai Şurada təşkilati məsələlərə baxılıb.

İctimai Şuranın sədrliyinə "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyevin namizədliyi irəli sürülüb və yekdilliklə Şuranın növbəti dövr üçün sədri seçilib."Regional İnsan Hüquqları və Media Mərkəzi" İctimai Birliyinin sədri Xalid Kazımov sədr müavini, "Sosial-İqtisadi İnkişaf Uğrunda" İctimai Birliyinin sədri Sevda Məmmədova isə İctimai Şuranın katibi seçiliblər.

# Hüquq məbədi, təhsil ocağı

### Məktəblilər Akademiyada təhsilə təşviq edilir

## Gələcəyin mübariz asayiş keşikçiləri

Polis Akademiyasının ən böyük uğurlarından biri, bəlkə də elə birincisi ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə hallarla, cinayətkarlıqla mübarizənin nəzəri-praktiki avanqardına çevrilməsidir. Çünki bu mübarizə polis əməkdaşından Vətənə sevgi, xalqa xidmət etmək ruhu, canı bahasına belə andına sadəqətli olması kimi yüksək mənəvi keyfiyyətlər məcmusu tələb etdiyi qədər, hüquqi və kriminalistk biklərlə "silahlanmanı" da şərtləndirir. Azərbaycan isə kriminogen durumunun sabitliyinə görə əksər ölkələri qabaqlayır. Bunda nəzəri və praktiki biliklərə yiyələnmiş, intellektual təfəkkürə malik ali hüquq təhsilli polis zabitlərinin yerlərdə mübarizə strategiyasını, əməliyyat-axtarış və istintaq fəaliyyətini düzgün həyata keçirməsinin də mühüm əhəmiyyəti var. Bu isə, dolayısıyla Akademiyanın, oradakı professor-müəllim heyətinin cinayətkarlıq üzərində pedoqoji qələbəsi anlamına gəlir.

Akademiyanı seçən abituriyentlərin fiziki hazırlıq və sağlamlıq vəziyyətlərinin əvvəlcədən yoxlanılması, eyni zamanda, qəbul imtahanında ən yüksək balı toplayanların kursant adını qazanması ali təhsil müəssisələri arasında onun rəqabət əzmini önə çıxarır. Ancaq burada cəmiyyətin gələcəyi, təhlükəsizliyi ilə bağlı vacib bir məqam daha çox diqqət çəkir. Belə ki, savadlı gənclərin xüsusi təyinatlı bu ali təhsil müəssisəsinə qəbul olunması və onların sabahın qanun keşikçiləri kimi yetişdirilməsi gələcəyimizin əmin əllərə təslim ediləcəyi barədə cəmiyyətə əvvəlcədən açıq ictimai mesaj ünvanlayır.



## Güclü baza peşəkarlığa təminat verir

Polis Akademiyası cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təminində fəaliyyət göstərəcək kadrların yetişdirilməsi üçün bütün maddi-texniki təminata malikdir. Dövlət qayğısı ilə əhatə olunan ba təhsil müəssisəsi müasir dövrün təhdid və çağırışlarının, həmçinin innovasiyaların inkişafı və tətbiqinin sürətlə genişlənməsi ilə parelel öz tədris proqramını təkmilləşdirir, imkanlarını artırır. "Polis Günü" ərəfəsində Akademiya kampusunda yeni yataqxananın istifadəyə verilməsi təhsilalanların sosial və məişət şəraitinin müasir tələblər səviyyəsinə yüksəldilməsi istiqamətində atılan növbəti addım idi. Buradakı tədris modulu, kriminalistik şəhərcik, idman meydançaları, tədris korpusları və zəngin kitabxana peşəkar zabit hazırlığına geniş imkanlar açır.



Akademiyanın nüfuzu və təklif etdiyi üstünlüklər orta məktəbi bitirmiş gənclərdən daxili işlər orqanları sistemində təhsil almaq, ali təhsilli hüquqşünas kimi ixtisaslaşmaq istəyənlərin sayına da təsir edib. Bunda gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi ilə əlaqədar keçirilən silsilə tədbirlərin də rolu az deyil. 2022-2023-cü tədris ilində respublikanın bütün rayonlarında görüşlər keçirilib, xüsusi təyinatlı ali təhsil müəssisəsinin imkanları barədə məlumatlar verilib. Elə Akademiyanın özündə aparılan "Açıq qapı" günləri uşaqlarda polis peşəsinə maraq doğurur, belə tanışlıqlar onların gələcəkdəki ixtisas seçiminə öz töhfəsini verir.

Polislərin müasir dövrün tələblərinə uyğun ixtisas artırmaları, yenidən hazırlıqları kimi ümdə məsələlərin də öz həllini tapdığı Akademiyanın auditoriyalarında xalqa xidmət funksiyalarının icrasını daha səmərəli həyata keçirmələri üçün əməkdaşlara mənəvi dəyərlərin aliliyi və yüksək peşəkarlıq prinsipləri aşılanır. Təkmilləşmə, müasir dövrün təhdid və çağırışlarına hazırlıqlı olmaq birbaşa DİN rəhbərliyinin göstərişi, gözləntisidir. Nazirliyin elə bir kollegiya iclası, elə bir naziryanı müşavirəsi olmur ki, vətəndaş - polis münasibətlərinin inkişafı və bunun əsasında məmnunluğun təmin edilməsi kimi qarşıya mühüm vəzifələr qoyulmasın və tələb edilməsin. Yəni təkmilləşmə, inkişaf qaçınılmaz tələbdir.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*



# Asayiş bizə əmanətdir...

Polisin missiyası vətəndaşların təhlükəsizliyi, cəmiyyətin əmin-amanlığıdır. Bunu layiqincə təmin etmək hər bir polis əməkdaşının borcu və vəzifəsidir. Öz fəaliyyətini qanuni əsaslar üzərində quran Azərbaycan Polisi vətəndaşlarla ünsiyyətdə nəzakət və peşəkarlıq meyarlarını rəhbər tutur. Harda olursa olsun - suda, quruda, nəqliyyatda, dəniz və hava limanlarında, metroda... ictimai asayiş və ictimai təhlükəsizlik bizə, asayiş keşikçilərinə əmanətdir.









# Amalı da, vəzifəsi də Vətənə xidmətdir

Azərbaycan poeziyasının Şuşa zirvəsini Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Vaqif Poeziya Günlərində yenidən fəth etdik. 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya evinin ulu öndərin iştirakı ilə açılışını özündə əks etdirən videogörüntüləri yenidən işğaldan azad olunmuş Şuşada görmək qürurverici idi. Ona görə qürurludur ki, ədəbiyyatımıza, tariximizə və mədəniyyətimizə ulu öndər Heydər Əliyevin özü kimi diqqət ayıran bir liderin Ali Baş Komandanlığı ilə biz yenidən Şuşaya sancdığımız bayrağın altında Vaqifin ruhunu şad edirdik.

### Və ən yaddaqalan məqam

Tədbirin təhlükəsizliyi çox yüksək səviyyədə təşkil olunmuşdu. Axşam saatlarında Vaqif məqbərəsinin önündə, açıq havada keçirilən tədbirlə bağlı DİN əməkdaşları xidmətə cəlb olunsalar da aparıcının Vaqifin şeirini səsləndirərkən arxa sıraların birində polis əməkdaşının ona qoşulması Azərbaycan Yazıçılar Birliyinin bir neçə yetkilisinin diqqətindən yayınmadı və onlardan birinin, yazıçı Vüsal Nurunun: "Azərbaycan polisi əgər Vaqifi də əzbərdən bilirsə, deməli, bu ruhla biz hələ çox aşılmayan dağları aşarıq",- deməsi məni qürurlandırdı. Hərgah tədbirə mən AYB-nin üzvü kimi qatılmışdım.




Tədbirdə daha yaddaqalan bir məqam Şuşada xidmət edən DYP əməkdaşlarının, yazarlara, söz adamlarına göstərdiyi diqqət idi. İştirakçılar üçün ayrılmış avtobuslara çata bilməyənləri onlar təyin olunmuş yerlərə aparmaqla xalq arasında "Polis olan yerdə heç kim yolda qalmaz" deyimini bir daha təsdiqləyirdilər.

### Ölkə gündəmini dəyişən hadisə

Hadisə Naxçıvanda baş versə də sorağı sərhədləri aşmışdı. Ölkədə hamı onun, polis baş serjantı Vüsal Quliyevin fədakarlığından danışırdı. Polis həmişə olduğu kimi bu dəfə də canını can qurtarmaq üçün fəda etmişdi. Bu, əslində, yeni xəbər deyildi və ağrılı olsa da onlarla belə fakt DİN-in "tərcümeyi-halında" iftixarla vurğulanır. Və cənab Prezidentin məlum Sərəncamı, həmkarımızın ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilməsi fədakarlığa, qəhrəmanlığa ən ali səviyyədə qiymətin təntənəsi oldu.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*
*Şuşa şəhəri*

# Vətəndaş məmnunluğu əsas tələbdir

## Polis ictimai nəzarətin güclənməsində maraqlıdır




Polis ictimaiyyətin "gözü qarşısında", yəni xalqla sıx təmasda olduğuna görə ən çox ictimaiyyətin diqqəti də asayiş keşikçilərinin üzərində cəmlənir. Həm də yalnız ona görə yox ki, polis əməkdaşı uniformada xidmət aparır və ictimai yerlərdə ilk baxışdaca diqqət çəkir. Polis peşəsi birbaşa insanların can və əmlak güvənliyi, hüquq və azadlıqları, təhlükəsizliyi ilə bağlı olduğuna görə polis görən vətəndaş dərhal öz imtiyazlarını xatırlayır.

Ənənəvi media nümayəndələrilə yanaşı sosial platformalar hazırda hər bir fərdi "repartyora" çevirib ki, bu ictimai diqqətin miqyasını genişləndirib. Heç də həmişə obyektiv olmayan, əksinə, bəzən qərəzli, qeyri-dəqiq, sosial məsuliyyət hissindən uzaq paylaşımlar, görüntülər sosial şəbəkələr üzərində yayılsa da qanunun aliliyi prinsipinə zidd olan istənilən fakt barəsində vətəndaşlar tərəfindən polisin məlumatlandırılması, yaxud faktın ictimailəşdirilməsi ümumi problemlərlə birgə mübarizə aparılması baxımından ictimai nəzarətin indikatorudur.

**Bu gün nəinki daxili işlər orqanlarının fəaliyyəti barədə - xidmətə qəbul olma, şikayət, etiraz, təşəkkür, hüquqi yardım alma, hətta heyvanlara qarşı zorakılıq, ağacların kəsilməsi, yaşıllıqların məhv edilməsi kimi ən müxtəlif məsələlərlə bağlı istənilən şəxs polisin sosial şəbəkələrdəki səhifələrinə yazır. Nazirliyin çoxminli auditoriyaya malik "instagram", "tik-tok", "facebook", "telegram", "youtube" səhifələri effektli ictimai nəzarət "aparatına" çevrilib.**

Elə bu günlərdə yollarda vətəndaşların ictimai nəzarətin həyata keçirilməsində iştirakını artırmaq məqsədi ilə yol polisinin yeni vatsap nömrəsini aktivləşdirməsi Daxili İşlər Nazirliyinin ictmai nəzarətin gücləndirməsində nə qədər maraqlı olduğunu bir daha göstərdi. Hüquqi dövlət fəlsəfəsinin mahiyyəti hüquq pozuntularının aradan qaldırılmasında təkcə hüquq mühafizə orqanlarının yox, vətəndaşların məsuliyyətini də özündə ehtiva edir. Çünki neqativ hal varsa, bu vətəndaşı narahat edirsə, qanunauyğun tədbirlər görülür. Buna görə də, ictimai nəzarət polisə xidmətin təşkilində köməkçi vasitələrdən biridir.

İctimai nəzarət mexanizmləri, yəni sosial platformalar polisə ilk növbədə cinayətkarlıqla mübarizədə yeni imkanlar yaradıb. Buna nümunə kimi, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı ictimaiyyətə edilən çağırışa cavab olaraq Nazirliyin sosial şəbəkə hesablarına göndərilən məlumatlar sayəsində narkotacirlərin yaxalanmasını yada sala bilərik. Beləcə, narkotik təhdidinə qarşı "ictimai müqavimət" formalaşdırılıb.

Ancaq bu proses birtərəfli deyil, yəni polis sosial şəbəkələrə yalnız ictimai sabitliyin qorunması və cinayətkarlıqla mübarizə vasitəsi kimi yanaşmır. Bu resurslardan daha çox vətəndaş müraciətlərinin cavablandırılması, onların üzləşdikləri problemlərə operativ müdaxilə etmək üçün səmərəli istifadə edilir. Bu gün nəinki daxili işlər orqanlarının fəaliyyəti barədə - xidmətə qəbul olma, şikayət, etiraz, təşəkkür, hüquqi yardım alma, hətta heyvanlara qarşı zorakılıq, ağacların kəsilməsi, yaşıllıqların məhv edilməsi kimi ən müxtəlif məsələlərlə bağlı istənilən şəxs polisin sosial şəbəkələrdəki səhifələrinə yazır. Nazirliyin çoxminli auditoriyaya malik "instagram", "tik-tok", "facebook", "telegram", "youtube" səhifələri effektli ictimai nəzarət "aparatına" çevrilib. Bununla vətəndaş öz müraciətini birbaşa Daxili İşlər Nazirliyinin rəhbərliyinə çatdırmaq imkanı əldə edib ki, təkcə bu ilin altı ayında 19 min 629 belə müraciət daxil olub və aidiyyəti üzrə yönləndirilib.

Bu fakt belə ictimai nəzarət prizmasından baxanda polis – vətəndaş münasibəti haqda yetərincə aydın təsəvvür yaradır.

*Çingiz Şıxverdiyev,*
*polis polkovniki*

# Nəcib təşəbbüs, xeyirxah əməl

## Qanvermə aksiyası keçirilib

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Binəqədi Rayon Polis İdarəsinin əməkdaşları talassemiyalı və hemofiliyalı xəstələrə dəstək olmaq məqsədilə qanvermə aksiyasına qoşulublar.

Xüsusi tibb briqadasının həkim-hematoloqları donorları müayinə etdikdən sonra onlardan qan götürüblər.

Polis əməkdaşları qan xəstəliklərindən əziyyət çəkənlər üçün könüllü qan verməyin xeyirxah iş, nəcib əməl və vətəndaşlıq borcu olduğunu bildiriblər.

Humanitar aksiya çərçivəsində əldə edilən qan nümunələri Respublika Mərkəzi Qan Bankına göndəriləcək və irsi qan xəstəliklərindən əziyyət çəkənlərin müalicəsində istifadə olunacaq.

# Qanunsuz cəhdin qarşısı alınıb

## Şəxs barəsində inzibati həbs tənbeh tədbiri tətbiq edilib

Füzuli rayonu istiqamətində nəzarət buraxılış postundan müvafiq icazə olmadan keçməyə cəhd edən şəxs saxlanılıb.

Nəzarət postundan keçmək istəyən bir nəfərin təqdim etdiyi şəxsiyyət vəsiqəsinin özünə aid olmaması şübhə doğurduğundan araşdırmalar aparılıb. Nəticədə həmin şəxsin Masallı rayonunun Xırmandalı kənd sakini Vüsal Fərzəliyev olduğu müəyyənləşdirilib. Faktla bağlı Füzuli Rayon Polis Şöbəsində toplanmış materiallar əsasında məsələyə hüquqi qiymət verilməsi üçün rayon məhkəməsinə göndərilib.

Məhkəmənin qərarı ilə Vüsal Fərzəliyevin barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə 8 sutka müddətinə inzibati həbs tənbeh tədbiri tətbiq edilib.

# Uşaq xilas edildi

## Qayğısız qalan uşağa polis qayğısı

Kürdəmir rayonunda sosial təhlükəli vəziyyətdə olan azyaşlı polis əməkdaşları sığınacağa yerləşdiriblər.

Uşağın baxımsız halda qalması barədə Kürdəmir Rayon Polis Şöbəsinə qonşular məlumat veriblər.

Polis əməkdaşları müvafiq icra hakimiyyətinin nümayəndələri ilə birlikdə azyaşlının yaşadığı ünvana baxış keçiriblər. Orada məlum olub ki, 3 yaş 9 aylıq Zəhranın anasının səhhətində ciddi problemlər var, yaşlı nənə isə uşağa qayğı göstərmək iqtidarında deyil. Atası isə həbs edilib.

Ananın müraciəti də nəzərə alınaraq uşağın sığınacağa yerləşdirilməsi qərara alınıb. Bundan sonra polis əməkdaşları azyaşlını Azərbaycan Uşaqlar Birliyinin sığınacağına aktla təhvil veriblər.

Kürdəmir RPŞ-nin inspektoru, polis leytenantı Gülşən Əhmədova qəzetimizə bildirib ki, rayon ərazisində mülların vaxtında aşkar edilərək hüquqlarının qorunması üçün mütəmadi profilaktik-maarifləndirici tədbirlər keçirilir.

# Əfsanəvi polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları



***1828-cı ildə Vidokun elmi-fəlsəfi memuar xarakterli "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərləri Onore de Balzakın yazdığı ön sözlə nəşr olunub. Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri tərbiyəvi mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Bunu nəzərə alaraq, hələ bir neçə il əvvəl Vidokun "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərlərindən parçaların ilk dəfə Azərbaycan dilinə tərcüməsinə başlamışdıq. Üzərindən uzun illər, onilliklər örtsə də, bu "konstitusiya" qüvvədən düşmür. Odur ki, yenidən və daha təfsilatlı tərcümə ilə əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarına qayıdırıq.***

### Cəmiyyəti təhdid edənlər

Bir çox hallarda bu oğrular elə öz yoldaşlarını ələ verirdilər. Bunlardan əlavə ən aşağı səviyyəli fahişələrlə birgə yaşayan avara və tufeylilər polis üçün çalışırdı. Nifrətə layiq bu qrupa daxil olan şəxslər oğrular və cibgirlərin yaxalanması üçün qiymətli məlumatlar verirdilər. Bir qayda olaraq, bu şəxslərin məşuqələri yaxalananda onların azad olunması üçün hər bir şeyi etməyə razı olurdular. Tanınmış oğrular-la, hansı ki, mütəmadi olaraq, Bisetredə (Fransanın ən məşhur həbsxanası) cəza çəkməyə göndərilirdi, əlaqələri olan qadınların xidmətlərindən də istifadə edilirdi. Bu şəxslər cəmiyyətin ən şərəfsiz, ləyaqətsiz zümrəsi olsa da, bununla belə, təcrübə göstərirdi ki, onlardan istifadə etmək vacibdir. Çünki yalnız polis müfəttişlərinin bacarığına arxayın olmaq olmurdu. Polisin fəaliyyəti onda daha səmərəli olur ki, ən vacib informasiyaları əldə etməklə müvafiq tədbirlər görür. Polis xidməti oğrulara qarşı mübarizədə daimi əməkhaqqı almayan şəxslərdən istifadə etməyə o qədər də həvəs göstərmirdi. Amma bu və ya digər səbəbdən polisə xidmət göstərmək və kölgədə qalmaq istəyənlərin köməyindən yararlanmağa çalışırdı.



Asayişin mühafizə polisinin prefektura rəisi cənab Jan Anri çoxdan anlayırdı ki, hər iki tərəfi itilənmiş qılınc kimi bu şəxslərdən istifadə təhlükəli vəziyyət yaradıb, cinayətkarlıq sürətlə artırdı, hər gün mindən artıq ictimai təhlükəli əməl baş verirdi. Məni polis xidmətinə cəlb etdiyi üçün bu şəxslərdən yaxa qurtarmağa çalışırdı. Çünki cənab Anri qəti əmin idi ki, bir sıra xəstəliklər var, onları yalnız zəhərlə müalicə edirlər. Fəaliyyət dairəmi genişləndirdikcə, gizli agent adı altında oğru şəbəkəsi quranların cinayətkar əməllərini ifşa etdim. Cinayətkarlıq sürətlə azalırdı. Bu məni sevindirirdi. İşimdən və xidmətimdən olduqca məmnun idim.

Ayaqqabı boyaqçılarından tutmuş, dilənçilər, faytonçular, paltaryuyanlar, qırçılar, çörəkçilər, çobanlar, aşbazlar arasında dostlarım var idi. Hamısını inandırdım ki, "kömək lazımdır". Bu adamlar şəbəkəmin əsas özəyini təşkil edirdi. Hər bir hadisə yerinə şəxsən gedir, cinayətkarların üslub və metodunu görməklə onu kimin törədəcəyini təxmin edirdim. Bu, digər xəfiyyələri qane etmirdi. Və yüzlərlə ikili oynayan xəfiyyələr tərəfimdən cinayət başında yaxalanaraq, həbsə göndərildi.

### Cinayətkarlar islah olunan Vidoka qarşı

Mən polis xidmətində çalışmağa başlayan zaman hər iki cinsdən olan gizli agentlər mənə qarşı birləşdilər. Çünki, tezliklə sonlarının gələcəyini başa düşmüşdülər. Mən təmiz idim və məni ələ almaq mümkün deyildi. Mən onlar kimi ikili oynamırdım. Onlar mənə müharibə elan etdilər. Məni məhv etmək üçün nələr fikirləşmirdilər? Amma bu səylərin hamısı nəticəsiz qalırdı. Mən tufana yalnız başını azca əyən palıd ağacı kimi dözdüm. Hər gün məndən yalan məlumatlar verirdilər. Amma cənab Anri polisin nüfuzundan istifadə edərək mənim düzgünlüyümə təminat verirdi. Qərara alınmışdı ki, barəmdə verilən məlumatlarla tanış olacağam və hər biri barədə yazılı izahat verəcəyəm. Mənə göstərilən bu etimad çox xoşuma gəlirdi və göstərirdi ki, rəhbərlik mənim yaxşı işimə qiymət verməyi bacarır. Artıq dünyada heç nə məni seçdiyim yoldan döndərə bilməzdi.

Hər bir işdə uğur əldə etmək üçün müəyyən qədər entuziazm (Güclü ruh yüksəkliyi, coşqunluq) olmalıdır. Mən ümid etmirdim ki, polisin gizli agenti statusunu hörmətli bir vəzifəyə çevirəcəyəm. Amma öz-özümə qürurlanırdım ki, vəzifələrimi ləyaqət və şərəflə yerinə yetirəcəyəm. Mən qorxmaz, ələ alına bilməyən, qərəzsiz, yorulmaz, cəsur insan şöhrəti qazanmaq istəyirdim. Ən azı məni qabiliyyətli və dərrakəli biri olaraq tanımalarına çalışırdım. Səylərimin uğur gətirməsi bu fikri möhkəmləndirdi.

*(Ardı var)*

# Polisin Milli Qəhrəmanları

## Qəhrəmanlarımızı tanıyaq...



Şahlar Şükürov 17 may 1952-ci ildə Kəlbəcər rayonunun Zülfüqarlı kəndində doğulub. Məktəbi bitirdikdən sonra Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki İqtisad Universiteti ) daxil olub. 1972-ci ildə təhsilini bitirdikdən sonra hərbi xidmətə çağrılıb. Ordu sıralarından tərxis olunduqdan sonra Bakıdakı islah-əmək müəssisələrinin birində işləyib. Sonra fəaliyyətini Ucar rayon Daxili İşlər Şöbəsində davam etdirib.

Ş.Şükürov 1986-cı ildə Rostov Milis Akademiyasını bitirib, 1987-ci ildə Zərdab rayon DİŞ-də əməliyyat işləri üzrə rəis müavini vəzifəsinə təyin edilib. Polis mayoru rütbəsinədək yüksəlib. O, tez-tez qaynar nöqtələrdə olub, erməni yaraqlılarına qarşı aparılan əməliyyatlarda fəal iştirak edib. 1990-cı il iyul ayının 11-də hərbi qulluqçuların müşayəti ilə Tərtər-Kəlbəcər yolu ilə hərəkət edən maşın karvanı Ağdərə ərazisindən keçərkən, erməni terrorçularının qəfil hücumu ilə rastlaşıb. Bu qeyri-bərabər döyüşdə son nəfəsinədək döyüşüb və qəhrəmancasına həlak olub. Ailəli idi. İki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə polis mayoru Şahlar Şükürova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib.

Kəlbəcər rayonunun Zülfüqarlı kəndində dəfn edilib.

Zərdab rayonunda adına küçə və məktəb var.

# "WhatsApp"da yeni dövr

## Video formatlı mesaj göndərmək mümkün olacaq



"WhatsApp" tərtibatçıları messencerdə yeni funksiyanın istifadəyə verildiyini elan ediblər. Yeni funksiya istifadəçilərə digər messencerlərdə oxşar funksiya sayəsində tanışdır. Söhbət video formatlı mesajlardan gedir.

Bu funksiya vasitəsilə istifadəçilər digərlərinə 60 saniyəlik video mesajlar göndərə bilərlər. Video formatlı mesaj göndərmək üçün mətnlərin daxil edilməsi sahəsinin sağ hissəsindəki video düyməsini klikləyib saxlamaq lazımdır. Həmin düyməni basıb saxlayandan sonra videonun çəkilişi prosesi başlayır. Düyməni yuxarı istiqamətə sürüşdürəndən sonra isə onu basılı saxlamağa ehtiyac qalmır. Videonu qəbul etmiş şəxs onu işə salan zaman video avtomatik səssiz rejimdə işə düşəcək.

Bundan əlavə, şirkət messencer mesajları göndərdikdən sonra 15 dəqiqə ərzində redakte etməyə icazə verən funksiyanı da artıq işə salıb.

# Mədəni nitq: necə danışmalı

## Döyüşdə qılınca, məclisdə gözəl nitqə malik olanlar qəhrəmandır

Dilin ifadə imkanları o qədər zəngin və o qədər rəngarəngdir ki, eyni dildə danışan hər fərdin öz ifadə üsulu olur. Ancaq mədəni danışıq etiketləri bütün sivil insanlar üçün qızıl qayda sayılır.

Məsələn, kömək etmək, qulluq göstərmək məqsədilə, adətən, İcazə verin kömək edim; Siz əziyyət çəkməyin, bunu mən edərəm; Sizə kömək etmək lazımdır?; Cavab verməyə tələsməyin, bir qədər fikirləşin; Sizi narahat edən nədir?; Nə buyurursunuz? və. kimi sözlərədən istifadə edilir.

**İş gördürmək məqsədilə:** İnciməyin, sizə zəhmət verəcəyəm; Əgər mümkünsə; Zəhmət olmasa; Buyruq olmasın; Vaxtınız varsa; İmkanınız olsa; Sizə əziyyət olacaq; Sizi yormayım; Əvvəlcədən minnətdarlığımı bildirirəm və s.

**Etiraz etmək, razılıq verməmək məqamında:** Bu, məni təmin etmir; Etirazımı bildirirəm; Etiraz edirəm; Sizin fikrinizlə şərik deyiləm; Mən başqa cür düşünürəm; Bağışlayın, bu məsələdə sizinlə razı deyiləm; Bu, mənim xoşuma gəlmir; Belə etməyin; Bu, üreyimcə deyil və s.

**İntizama dəvət, məzəmmət etmə:** Sizdən bu hərəkəti gözləməzdim; Belə hərəkət sizə yaraşmaz; Nəzakətli olun; Çalışın ki, başqaları sizdən razı qalsın; Bir qədər səmimi olun, səhvinizi etiraf etməkdən çəkinməyin...

**Deyilənlərlə razılaşmaq, mübahisədən imtina etmək məqamında:** Sizin fikrinizə şərikəm; Məsələ mənə aydındır; Bu barədə söhbət açmağa ehtiyac duymuram.

# Daxili İşlər Nazirliyi müsabiqə elan edir

### Ali təhsilli və kompüter ilə işləmək bacarığı olanlara üstünlük veriləcək

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, nazirliyin müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 27-dək, boyu 180 santimetr və ondan hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaqdır.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcəkdir.

İştirak etmək istəyən şəxslər mia.gov.az/az/vacancies/3/ ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən doldururaq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012)-590-94-12;**
**(012)-590-93-45.**
**(012)-590-92-37;**
**(012)-590-97-52;**

### Gənc qadınlar operator vəzifələrinə dəvət olunur

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi operator vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

İştirak etmək istəyən şəxslər 2023-cü ilin iyul ayının 17-dən avqust ayının 17-dək Daxili İşlər Nazirliyinin internet saytında /www.mia.gov.az/ yerləşdirilmiş elektron ərizə formasını və anket məlumatlarını şəxsən doldurarak elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 590-80-63**
**80-63 daxili**
**(012) 590-80-93**
**80-93 daxili**

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik